# Əcnəbi tələbələr üçün əlçatan təhsil imkanı

## "HEYDƏR ƏLİYEV ADINA BEYNƏLXALQ TƏHSİL QRANTI"

## qalibləri ilə söhbət

**Azərbaycan son illərdə təhsil sahəsində beynəlmiləlləşmə istiqamətində mühüm addımlar atır. Bu prosesin əyani sübutu dünyanın müxtəlif ölkələrindən gələn tələbələrin Azərbaycanda təhsil almaq üçün seçim etməsidir. Dekabrın 11-də keçirilən "Elm və ali təhsilin beynəlmiləlləşməsi" forumu da məhz bu istiqamətdə əcnəbi tələbələrin Azərbaycan təhsili ilə bağlı təəssüratlarını bölüşməsi üçün əhəmiyyətli platforma oldu. "Azərbaycan müəllimi" olaraq forumda iştirak edən tələbələrlə söhbətləşdik və onların ölkəmizdəki təhsil təcrübələri, kəşfləri və Azərbaycanla bağlı təəssüratları ilə tanış olduq.**


Fatimah Alothman


Dərya Ağayeva


Cabri


Lia Agustina


Muhammad Jourici




### "İraqlı tələbələr adından Azərbaycana təşəkkür edirəm"

**Fatimah Alothman, iraqlı tələbə**

- Bakı Dövlət Universitetinə qəbul olmuşam. Qrant təqaüdü əsasında hazırda universitetin hazırlıq bölməsində Azərbaycan dilində bir il hazırlıq keçirəm. "Biologiya" ixtisası üzrə təhsil alıram. Bizim İraq türkməni olaraq Azərbaycanla yaxınlığımız var. İraqda türk dilində ali təhsil almaq mümkün olmadığına görə Azərbaycanı seçdim. İraqda ali təhsil əsasən ərəb dilindədir. Azərbaycanda təhsil, diplom almaq mənim üçün şərəf olacaq. Aramızda dil baxımından elə də fərqimiz yoxdur. Bu baxımdan öz dilimizdə təhsil alırıq. Azərbaycan dünyada tanınan, dost ölkədir.

Bugünkü tədbir də çox gözəl təşkil olunub. Azərbaycanla, buradakı insanlarla tanışlıq çox gözəldir. Təbii ki, təhsilin heç bir dili yoxdur. Hansı bir dil olursa-olsun, bizim üçün şərəfdir. İraqlı tələbələr adından Azərbaycana təşəkkür edirəm. Bizi çox gözəl qarşıladılar. Burada olmağımdan bir ay keçsə də, hamı bizi öz doğmaları kimi qarşıladı, tam anlaşma şəraitindəyik. Bakı paytaxtın qədim hissəsi ilə tanış olduq. Ölkənizlə daha çox tanış olmaq istəyirik. Bakıda görməli gözəl yerlər çoxdur. Xaricdən daha çox gəncin Azərbaycanda təhsil almaq eşqinin artmasını təmənna edirik.

### "Çox gözəl müəllimlərimiz var"

**Dərya Ağayeva, türkiyəli tələbə**

- Mən "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" Proqramının qaliblərindənəm. Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə elan olunmuş təqaüd proqramı çərçivəsində Azərbaycanda təhsil alıram. Təqaüd proqramı ilə bağlı xəbəri aldıqdan sonra proqrama müraciət etməyə qərar verdim və qəbul aldım. Çox sevirəm Azərbaycanı, Bakıda olmaq həqiqətən çox gözəl bir hissdir. Əvvəllər də burada olmuşdum. Açığı, burada yaşamaq imkanı qazandığıma görə xoşbəxtəm. Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) magistraturasına daxil olmuşam. İki-üç ay öncə gəldim Azərbaycana. Dərslərimiz davam edir, hazırda imtahanlar dövründəyik. Hər şey çox gözəldir. Azərbaycan mənim üçün doğma ölkədir. Çünki həyat yoldaşım azərbaycanlıdır. Çox gözəl müəllimlərimiz var. UNEC çox nüfuzlu ali təhsil müəssisəsidir, beynəlxalq standartlara uyğun bir universitetdir. Burada oxumağı xüsusi həvəslə seçdim. Burada əldə etdiyimiz biliklərlə gələcəkdə çox gözəl yerlərə gedə biləcəyimizə ümid edirəm. Bir sözlə, çox xoşbəxtəm.

### "Təhsilimi davam etdirmək üçün Azərbaycanı seçdim"

**Cabri, malayziyalı tələbə**

- Mən Azərbaycan Dövlət İqtisad Universitetində doktorantura təhsili alıram. Azərbaycanın həyata keçirdiyi "Yaşıl" iqtisadiyyata keçid və bərpa olunan enerji mənbələrinin inkişaf etdirilməsinə dəstək üzrə "Azure" layihəsi doktorantura təhsilimdə əsas tədqiqat mövzumdur. Düşünürəm ki, bu layihə çox maraqlıdır. Hesab edirəm ki, Avropa və Asiyanın qovşağında yerləşən Azərbaycanda reallaşdırılan "Azure" layihəsi doktorantura araşdırmalarım üçün böyük əhəmiyyət kəsb edir. Buna görə də təhsilimi davam etdirmək üçün Azərbaycanı seçdim. Azərbaycan hökumətinə və UNEC-ə mənə burada təhsilimi davam etdirmək imkanı yaratdıqları üçün təşəkkürümü bildirirəm.

Hazırda Azərbaycanda doktorantura təhsilimin birinci ilidir. Bundan əvvəl magistratura təhsilimi idarəetmə ixtisası üzrə Çində almışam.

Gənc tədqiqatçı Azərbaycanın texnoloji potensialını gələcək araşdırmalar üçün əvəzsiz mənbə kimi qiymətləndirir.

### "Azərbaycan dilini sərbəst öyrənməyə çalışıram"

**Lia Agustina Feronika, indoneziyalı tələbə**

İndoneziyalı Lia isə Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Qida Keyfiyyətinin İdarəedilməsi üzrə MBA təhsili alır. Azərbaycan mədəniyyəti və təhsil sisteminin ona necə təsir etdiyini xüsusi qürurla danışır: "UNEC mənə beynəlxalq səviyyədə ünsiyyət qurmaq imkanı yaradıb. Burada dərslər dörd dildə keçirilir - Azərbaycan, türk, rus və ingilis dillərində. Bununla yanaşı, Azərbaycan mədəniyyəti mənə İndoneziyanı xatırladır. Xəzər dənizinə hər dəfə baxanda özümü başqa bir dünyada hiss edirəm. Dünyanın ən böyük gölünün sakitliyi və gözəlliyi məni heyran edir".

Azərbaycanın qonaqpərvərliyi və insanların mehribanlığı da Lia üçün bu ölkəni unudulmaz edib: "Buradakı insanlar çox səmimi və qonaqpərvərdirlər. Azərbaycan dilini öyrənməyə çalışıram. Azərbaycana gəlməyimin üzərindən artıq üç ay keçib və buradakı mədəniyyət məni çox təsirləndirib.

Azərbaycan çoxmədəniyyətli ölkədir və yerli icmaya hələ tam yaxınlaşmasam da, tələbə yoldaşlarım mənə çox kömək edirlər. İnsanların burada necə mehriban olduğunu görmək məni çox sevindirir. Onların bir neçə dili bilməsi də məni çox təəccübləndirir. Bu fərqli mühit mənim üçün unikal bir təcrübədir. Burada həm təhsil alıram, həm də yoldaşlarımla ünsiyyət zamanı Azərbaycan dilini sərbəst öyrənməyə çalışıram".

### Mehriban insanlar, qədim tarix və müasir təhsil sistemi

**Muhammad Jourici, pakistanlı tələbə**

Pakistandan Muhammad Jourici "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" Proqramının iştirakçısıdır. O, Azərbaycanın tarixi və müasirliyi arasında olan harmoniyanı xüsusi vurğulayır: "İki aydır ki, Azərbaycandayam və çox maraqlı yerləri kəşf etmişəm. Tarixi abidələr, ənənəvi mətbəx və insanların mehribanlığı məni çox sevindirir. Universitetdə təhsil mühiti çox yüksək səviyyədədir. Müəllimlər və digər tələbələr hər zaman kömək etməyə hazırdırlar. İlk vaxtlar dil problemi çətinlik yaratsa da, buradakı insanların dəstəyi ilə bu maneəni də aradan qaldıra bildim".

### Azərbaycan: təhsil və mədəniyyətin qovşağı

Azərbaycanın ali təhsil müəssisələrinin xarici tələbələrə təqdim etdiyi imkanlar təkcə biliklərin inkişaf etdirilməsi ilə bitmir. Eyni zamanda, tələbələr ölkənin zəngin mədəniyyəti, tarixi və təbii gözəlliklərini də kəşf edir, burada keçirdikləri vaxtı unudulmaz bir təcrübəyə çevirirlər. Azərbaycan universitetlərindəki çoxdilli təhsil mühiti, müasir təhsil sistemi və ölkənin qonaqpərvərliyi Azərbaycanı beynəlxalq tələbələr üçün cazibədar bir təhsil mərkəzinə çevirib.

Azərbaycan həm Avropa, həm də Asiya elementlərini özündə birləşdirən mədəniyyəti ilə gələcəkdə də daha çox xarici tələbənin təhsil üçün seçəcəyi ölkə olmağa namizəddir. Azərbaycanın zənginliyi təkcə onun təbii sərvətlərində deyil, eyni zamanda insanların mehribanlığında, tarixi irsində və dünya səviyyəli təhsil imkanlarındadır.

**Oruc MUSTAFAYEV**